*Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 02.06.2021-ci il tarixli F-261 nömrəli Əmrinə 1 nömrəli əlavə*

**Müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edən namizədlər üçün**

**TƏLİMAT**

- İmtahana gələrkən aşağıdakı sənədləri gətirmək mütləqdir:
  a) şəxsiyyəti təsdiq edən sənəd;
  b) şəxsi səhifədən çıxarış;
  c) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqəsini;

- Namizəd şəxsi səhifəsində qeyd olunan vaxtda müəyyən edilmiş imtahan mərkəzində olmalıdır;

- Namizəd imtahana tibbi maska ilə gəlməli və onlardan düzgün (burun, ağız və çənə nahiyəsini tam örtməklə) istifadə etməlidir. Maskadan istifadə bütün proses boyu mütləqdir;

- İmtahan binasına daxil olan namizədin məsafədən ölçə bilən elektron termometrlə bədən hərarəti yoxlanılır və zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunur. İmtahana bədən hərarəti 37°C-dən aşağı olan şəxslər buraxılır;

- Yoxlamadan keçərkən namizəd sosial məsafəni saxlamaqla şəxsiyyətini təsdiq edən sənədi nəzarətçiyə təqdim etməli və tələb olunduğu təqdirdə müvəqqəti olaraq maskasını çıxardaraq üzünü göstərməlidir;

- Namizədi müşayiət edənlər imtahan mərkəzinin ərazisinə buraxılmayacaqlar;

Namizədlər özlərinin və başqalarının sağlamlığına məsuliyyətlə yanaşmalı və qeyd olunanlara riayət etməlidirlər. İmtahan prosesində tibbi maskasını çıxardan və təlimatdan irəli gələn digər vəzifələri yerinə yetirməyən namizəd imtahandan uzaqlaşdırılacaq və imtahan nəticəsi ləğv ediləcək.